# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

17 (90) 20 oktyabr 2017-ci il İctimai-siyasi qəzet


## İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellosun etimadnaməsini qəbul edib.

Səfir Nikolaos Kanellos fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Nikolaos Kanellos etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı Yunanıstan-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparıldı, energetika sahəsində əməkdaşlıq və ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər müzakirə edildi.

## Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi







## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi günü qeyd edildi

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynov açdı. Təşkilatın sədri müstəqilliyin xalqımız və dövlətimiz üçün zəruriliyindən və onun əldə edilməsindən danışdı: "20 il öncə 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu. 1993-cü ildə ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev



Azərbaycanın müstəqilliyinin əbədi və dönməz etdi".

Daha sonra Respublik Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış etdi. O, Azərbaycanın Dövlət Müstəqillik Gününü Azərbaycan Tarixinin ən əlamətdar hadisəsi kimi qiymətləndirdi: "Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu".

Tədbirdə digər çıxış edənlər Azərbaycan Respublikasının ikinci dəfə müstəqilliyi əldə etməsindən az zaman keçməsinə baxmayaraq yüksək inkişafından, həyata keçirdiyi ölkə və dünya əhəmiyyətli layihələrdən danışıldı. Azərbaycanın Dövlət Müstəqilliyi günün işğal atında olan torpaqlarımızda keçiriləcəyi zamanın yaxında olduğunu bildirdilər.

# Faşizm üzərində qələbədə mühüm amillərdən biri xalqların birliyi olub



***Bakıda “Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi” mövzusunda beynəlxalq konfrans keçirilir***

Oktyabrın 12-də Bakıda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, “Qələbənin Varisləri” Beynəlxalq İttifaqının Azərbaycan nümayəndəliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkil etdikləri “Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi” mövzusunda beynəlxalq konfrans başlayıb.

Dövlət və hökumət rəsmilərinin, 20-dək ölkənin yüksək səviyyəli qonaqların, Milli Məclisin deputatlarının, ictimai təşkilatların, veteranların, ziyalıların, gənclərin iştirak etdikləri tədbirdə əvvəlcə İkinci



Dünya müharibəsində, Əfqanıstan və Qarabağ müharibələrində həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Beynəlxalq konfransda Respublika Veteranlar Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin 75-ci ildönümünə hazırlıq çərçivəsində keçirilən konfransın əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu konfransın Azərbaycanda keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin əldə edilməsinə mühüm töhfələr verib.

Azərbaycandan 690 mindən çox insan müharibədə iştirak edib, onlardan 300 mindən çoxu həlak olub. On minlərlə soydaşımız yaralanıb, minlərlə insan itkin düşüb. 123 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın adı oğul və qızlarının şücaəti, on minlərlə həmvətənimizin orden və medallara layiq görülməsi ilə də tarixə yazılıb. Bu, Azərbaycan xalqının qəhrəmanlığının bariz nümunəsidir. Xalqımız həmin müharibədə beş milli diviziyası ilə yanaşı, bütün potensialı ilə iştirak edib. Bakı neftinin böyük qələbənin qazanılmasındakı rolu tarixi fakt kimi hamıya məlumdur. Bundan başqa, bütün Azərbaycan “hər şey cəbhə üçün, hər şey qələbə üçün” devizi ilə işləyib və əsl fədakarlıq nümunələri göstərib.

Faşizm üzərində qələbədə mühüm amillərdən biri xalqların birliyi olub. Bu amala sadiq qalan Azərbaycan xalqı və dövləti bütün dünyada sülhün qorunmasında öz töhfəsini verir və gələcəkdə də buna hazırdır. Ancaq bu gün erməni faşizmi ilə qarşılaşmış, ərazisinin iyirmi faizi Ermənistanın işğalı altında olan Azərbaycana qarşı münasibətdə eyni prinsipə



həmişə əməl edilmir. Konfransda belə əminlik ifadə olunub ki, mövzusu faşizmin bütün forma və təzahürlərinə qarşı mübarizəyə həsr edilmiş bugünkü beynəlxalq konfrans regionda və dünyada sülhün bərqərar olunmasına öz töhfəsini verəcək.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev alman faşizmi üzərində böyük qələbədə danılmaz payı olan Azərbaycanın belə tədbirlərə ev sahibliyi etməsini yüksək qiymətləndirərək deyib: “Bu beynəlxalq konfrans dövlət və ictimai xadimləri, veteran və gənclər təşkilatlarının nümayəndələrini bir məkanda toplayıb. Müzakirəyə çıxarılan mövzu çox aktual və mühümdür. Xüsusən ona görə ki, son illərdə saxtakarlar İkinci Dünya müharibəsinin tarixini yenidən yazmağa, Böyük Vətən müharibəsinin xarakterinə yenidən nəzər salmağa, faşizmin darmadağın edilməsində xalqlarımızın həlledici rolunu kiçiltməyə çalışırlar. Əminəm ki, bugünkü tədbir konstruktiv ruhda keçəcək, tarixi həqiqəti təhrif etmək cəhdlərinə qarşı mübarizəyə dair praktiki təkliflər hazırlamağa imkan verəcək, müasir mərhələdə dünyada və regionumuzda mürəkkəb qlobal prosesləri anlamağa şərait yaradacaq. Əlamətdar haldır ki, bu konfrans Bakıda - müharibə illərində cəbhəni yanacaqla təchiz edən şəhərdə keçirilir. Marşal Georgi Jukov deyirdi: “Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin qorunması üçün düşmən üzərində tezliklə qələbə çalmaq üçün lazım olan miqdarda yanacaq verirdilər”.



Azərbaycanın cəbhəyə təkcə neft məhsulları göndərmədiyini, yeddi yüz mindən çox həmvətənimizin Böyük Vətən müharibəsi meydanlarında mərdliklə və fədakarlıqla döyüşdüyünü xatırladan Prezident Administrasiyasının rəsmisi deyib ki, onların təxminən yarısı geri qayıtmayıb. O vaxt Azərbaycan əhalisinin ümumi sayı cəmi üç milyon dörd yüz min nəfər idi. Bu o deməkdir ki,




respublika sakinlərinin orta hesabla təxminən hər beş nəfərindən biri əlinə silah götürüb döyüşürdü.

Vətənin müdafiəçilərinə, müharibə iştirakçılarına və onların ailə üzvlərinə Azərbaycanda dərin hörmət bəslənilir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Qələbə bayramı hər il rəsmi səviyyədə qeyd edilir. Ulu öndər Heydər Əliyev müharibə veteranlarını xalqımızın qızıl fondu hesab edirdi. Sevindirici haldır




ki, veteranlara qayğı bu gün də Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Respublikada müharibə iştirakçılarına sosial dəstək tədbirləri həyata keçirilir. Onlara Prezident təqaüdü verilir, veteranlar dövlət hesabına mənzil, avtomobil və bir sıra başqa güzəştlərlə təmin olunurlar. Prezident İlham Əliyevin Sərəncamı ilə hər il Qələbə Günü ərəfəsində müharibə iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul qadınlarına, cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilir.

Ə.Mehdiyev qeyd edib ki, 2015-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ən yüksək standartlara cavab verən yeni bina ilə təmin olunub. Bu təşkilatın maddi-texniki bazasını gücləndirmək məqsədilə Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Bütün bunlar ömrünün ən yaxşı illərini faşizmə qarşı mübarizəyə həsr etmiş insanlara dövlətimizin qayğısını əyani təsdiqidir.

Prezident Administrasiyasının rəsmisi İkinci Dünya müharibəsi haqqında həqiqətlərin, ümumən tarixin ermənilər tərəfindən saxtalaşdırılması cəhdlərindən, nasist ideologiyasının Ermənistanda dövlət səviyyəsində yayılmasından da danışıb.

Ə.Mehdiyev deyib ki, İkinci Dünya müharibəsinin başa çatmasından yetmiş ildən çox vaxt ötür. Lakin təəssüf ki, bu gün biz müasir saxtakarlar tərəfindən o dəhşətli müharibənin tarixini bilərəkdən və qəsdən təhrif etmək, ata-babalarımızın qəhrəmanlıqlarına qara yaxmaq, işğalçılar tərəfində vuruşmuş xəyanətkarlara və onların himayədarlarına haqq qazandırmaq cəhdlərinin şahidiyik.

O qeyd edib ki, iki il bundan əvvəl Rusiyanın təşəbbüsü ilə BMT Baş Məclisinin yetmişinci sessiyasında nasizmin və neonasizmin qəhrəmanlıq kimi qələmə verilməsinə qarşı mübarizəyə həsr edilmiş qətnamə qəbul olunub. Bu sənədi 126 dövlət



dəstəkləyib. “Təəccüb doğuran odur ki, bu ölkələr arasında Ermənistan da var. Halbuki onun ərazisində nasist ideologiyası dövlət səviyyəsində yayılır. Hazırda Ermənistanda hərbi canilərin qəhrəman kimi qələmə verilməsi prosesi gedir. Minlərlə günahsız insanı qətlə yetirmiş nasist rejiminin əlaltısı Qaregin Njdeyə bu ölkədə heykəl qoyulub. Yeri gəlmişkən, həmin heykəlin açılış mərasimində Ermənistan prezidenti də iştirak edib. Njde haqqında film çəkilib, kitab nəşr olunub. Onun şərəfinə gümüşdən hazırlanmış və qızıl suyuna çəkilmiş sikkələr zərb edilib. Bir sözlə, “SS” erməni legionunu yaradan adam milli qəhrəmana çevrilib”, - deyə Ə.Mehdiyev qeyd edib.



Bu cür hərəkətlərin başqa ölkələrin veteranları və geniş ictimaiyyəti tərəfindən lazımınca pislənilməməsinin təəssüf hissi doğurduğunu vurğulayan Prezident Administrasiyasının rəsmisi deyib: “Belə laqeydlik ona gətirib çıxarıb ki, bu gün erməni faşizminin varisləri nasist ideologiyasını dirçəldərək bizi zorla müharibəyə cəlb ediblər. İyirmi beş ildən çoxdur ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon işğal altındadır. Həm Ermənistanın özündə, həm də işğal edilmiş ərazilərimizdə etnik təmizləmələr nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb”.

Qeyd olunub ki, Ermənistanın millətçilik və işğalçılıq siyasəti təkcə regionun təhlükəsizliyinə təhdid yaratmır, həm də bütün dünyada ekstremizmə və şovinizmə qarşı mübarizəni çətinləşdirir. “Yalnız birlikdə informasiya-maarifçilik fəaliyyətini və təbliğat işini gücləndirməklə faşist ideologiyasının daşıyıcılarını ifşa etmək və müsbət dəyişikliklərə nail olmaq mümkündür. Bu məsələdə biz qəti və dəqiq mövqe tutmalıyıq”, - deyə Ə.Mehdiyev vurğulayıb.



AZƏRBAYCAN VETERANI



Sonra MDB dövlətləri Mərkəzi İcraiyyə Komitəsi sədrinin müavini Konozbeq Jusupbekov, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin rəhbəri Valentin Denisov, Milli Məclisin deputatı Rasim Musabəyov, "Qələbənin Varisləri" vətəndaş və təşkilatların Beynəlxalq İttifaqının müxtəlif ölkələrdəki nümayəndəliklərinin rəhbərləri, İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin tarixi-mədəni irsini yaşadan "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının vitse-prezidenti Alfred Qaponenko, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramov, İkinci Dünya müharibəsi veteranı Aleksandr Qritçenko, Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının sədr müavini Vladimir Tkaçenko, Rusiya Qəhrəmanlar Assosiasiyasının üzvü Vladimir Alimov, "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının Voronej şəhər nümayəndəliyinin rəhbəri Valentina Şumlyanskaya, "Döyüşçü qardaşlığı" jurnalının baş direktoru Vladimir Oskin, sabiq neft emalı sənayesi naziri Kamil Akimov və digərləri çıxışlarında 4 faşizm üzərində qələbənin əldə edilməsində mühüm töhfələrindən, o cümlədən Bakı neftinin böyük qələbənin qazanılmasındakı rolundan, tədbirin əhəmiyyətindən danışıblar. İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbədə və hazırda sülhün qorunmasında xalqlar birliyinin tarixi rolunu qeyd edən natiqlər öz ölkələrində bu istiqamətdə görülən işlərdən danışıblar.

Beynəlxalq konfransın işinə Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov və general-leytenant Alfred Qaponenko yekun vurublar.

Tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları adından müraciət qəbul edilib.




## Cəlil Xəlilov: Rusiyanın silah alması üçün Ermənistana kredit ayırması bölgədə sabitliyin bərpasına ciddi maneədir

Rusiya ilə Ermənistan arasında 2015-ci il noyabrın 26-da əldə olunmuş razılaşmaya əsasən, bu ölkəyə müasir silahlar almaq üçün daha 100 milyon dollar güzəştli kredit ayırması təcavüzkarın silahlandırılması istiqamətində yeni addım olmaqla, bölgədə sülhün və əmin-amanlığın bərpasına ciddi maneədir. Bu addım, həmçinin Avropada Adi Silahlar haqqında Müqavilənin pozulması kimi qiymətləndirilə bilər.

Respublika Veteranlar Təşkilatının sədr müavini deyib ki, hazırda iqtisadiyyatı Rusiyanın inhisarında olan Ermənistan nəinki indiyədək aldığı kreditləri, bu krediti də geri qaytarmaq iqtidarında deyil. Bütün bunlara baxmayaraq, Ermənistan hər vasitə ilə silahlandırılması təcavüzkarlığın dəstəklənməsi, digər tərəfdənsə, mövcud rejimin ömrünün uzadılmasına rəvac verməkdir. Çünki 2016-cı ilin aprel döyüşlərindən sonra Ermənistan silahlı qüvvələrinin məğlubiyyətindən ciddi sarsılan və xalqın qəzəbindən qorxan erməni iqtidarı hakimiyyəti itirmək təhlükəsi ilə üzləşib.

Müxtəlif vaxtlarda təcavüzkar Ermənistana ən müasir silah və texniki vasitələr vermiş (həmin yardımların məbləği milyard dollarla ölçülür) Rusiyanın bu addımı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tərəfsiz vasitəçilik missiyasını üzərinə götürmüş bir dövlətin mövqeyi ilə uyğun gəlmir. Bu münasibət Rusiya ilə Azərbaycan arasında ikitərəfli və MDB çərçivəsində əməkdaşlıqla da ziddiyyət təşkil edir. Bu baxımdan hələ 22 il əvvəl imzalanmış uzunmüddətli müqavilə əsasında Ermənistanda öz hərbi mövcudluğunu hərbi baza statusu səviyyəsinə qaldıran Rusiyanın hazırda həmin bazaların müasir silahlarla təchizatını NATO ilə cənub sərhədlərinin məhz Ermənistandan keçməsi ilə izah etməsi cəhdləri də inandırıcı görünmür.

"Ümumiyyətlə, Ermənistanın kredit adı altında silahlandırılması müdafiədən daha çox onun təcavüzkarlığına rəvac verilməsi məqsədi güdür. Bu addımların ardıcıl xarakter daşıması Azərbaycanın təhlükəsizliyinə əsaslı problem yaradır. Çünki həmin silahlardan sabah Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində, o cümlədən Dağlıq Qarabağda istifadə olunmayacağına kimsə zəmanət verə bilməz. Qərbin sanksiyalarına məruz qalmış Rusiya üçün silah satışı iqtisadi problemlərin həlli üçün çıxış yollarından biri sayılsa da, Ermənistana verilmiş silahların faktiki hədiyyə edildiyi şübhəsizdir. Çünki Ermənistanın iqtisadi potensialı bu kreditlərin ödənilməsinə heç vəchlə imkan vermir. Digər tərəfdən, bu birtərəfli münasibət regionun böyük dövləti olan Rusiyanın nüfuzuna da xeyir gətirmir", - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

# Milli Azərbaycan Tarixi Muzeyində müharibə veteranları ilə görüş keçirilib

Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin (RİMM) "Böyük Vətən müharibəsinin böyük döyüşləri" layihəsi çərçivəsində Milli



Azərbaycan Tarixi Muzeyində Qafqaz döyüşlərinin bitməsinə həsr olunmuş tematik görüş keçirilib. Tədbir Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının dəstəyi ilə təşkil olunub.

Muzeyin elmi əməkdaşı Fuad Ağayev görüş iştirakçıları qarşısında məruzə ilə çıxış edib. O, Qafqaz uğrunda döyüşlər haqqında, Bakının neft resurslarını qorunub saxlanmasının vacibliyi barədə, faşizm üzərində Qələbə qazanılmasına azərbaycanlıların böyük töhfəsi haqqında məlumat verib. Məruzədən sonra 2016-cı ildə Bakı Media Mərkəzi tərəfindən çəkilmiş "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filmi göstərilib.

Sonra müharibə veteranları Aleksandr Qritçenko, Mariya Rzayeva və İsmayıl Fərəcov müharibə haqqında xatirələrini bölüşüblər.

Sonda "Rossotrudniçestvo" Agentliyinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbərinin müavini Aleksandr Kalamin veteranlara möhkəm cansağlığı arzulayıb və muzeyin rəhbərliyinə, həmçinin Veteranlar Təşkilatına tədbirin keçirilməsinə göstərdikləri köməyə görə təşəkkürünü bildirib. O, Böyük Vətən müharibə-



si veteranlarına xatirə hədiyyələri, Fuad Ağayevə isə "Rossotrudniçestvo"nun fəxri fərmanını təqdim edib.

Tədbirdə, həmçinin Böyük Vətən müharibəsi veteranları Nazim Ramazanov, Əlikişi Cümşüdov, Xətai Mürzəlov, Respublika Veteranları Təşkilatının üzvləri, Respublika İncəsənət Gimnaziyasının şagirdləri, Azərbaycan kazaklarının nümayəndələri iştirak ediblər.

# Prezident Administrasiyasının rəsmisi: Ermənistanda nasist ideologiyası dövlət səviyyəsində yayılır

İkinci dünya müharibəsinin başa çatmasından yetmiş ildən çox vaxt ötür. Lakin təəssüf ki, bu gün biz müasir saxtakarlar tərəfindən o dəhşətli müharibənin tarixini bilərəkdən və qəsdən təhrif etmək, ata-babalarımızın qəhrəmanlıqlarına qara yaxmaq, işğalçılar tərəfində vuruşmuş xəyanətkarlara və onların himayədarlarına haqq qazandırmaq cəhdlərinin şahidiyik.

AZƏRTAC xəbər verir ki, bu fikri oktyabrın 12-də Bakıda keçirilən “Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi” adlı beynəlxalq konfransda Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev deyib.

O qeyd edib ki, iki il bundan əvvəl Rusiyanın təşəbbüsü ilə BMT Baş Məclisinin yetmişinci sessiyasında nasizmin və neonasizmin qəhrəmanlıq kimi qələmə verilməsinə qarşı mübarizəyə həsr edilmiş qətnamə qəbul olunub. Bu sənədi 126 dövlət dəstəkləyib. “Təəccüb doğuran odur ki, bu ölkələr arasında Ermənistan da var. Halbuki onun ərazisində nasist ideologiyası dövlət səviyyəsində yayılır. Hazırda Ermənistanda hərbi canilərin qəhrəman kimi qələmə verilməsi prosesi gedir. Minlərlə günahsız insanı qətlə yetirmiş nasist rejiminin əlaltısı Qaregin Njdeyə bu ölkədə heykəl qoyulub. Yeri gəlmişkən, həmin heykəlin açılış mərasimində Ermənistan prezidenti də iştirak edib. Njde haqqında film çəkilib, kitab nəşr olunub. Onun şərəfinə gümüşdən hazırlanmış və qızıl suyuna çəkilmiş sikkələr zərb edilib. Bir sözlə, SS erməni legionunu yaradan adam milli qəhrəmana çevrilib”, - deyə Ə.Mehdiyev qeyd edib.

Təəssüf ki, bu cür hərəkətlər başqa ölkələrin veteranları və geniş ictimaiyyəti tərəfindən lazımınca pislənilmir. Bu barədə danışan Prezident Administrasiyasının rəsmisi deyib: “Belə laqeydlik ona gətirib çıxarıb ki, bu gün erməni faşizminin varisləri nasist ideologiyasını dirçəldərək bizi zorla müharibəyə cəlb ediblər. İyirmi beş ildən çoxdur ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon işğal altındadır. Həm Ermənistanın özündə, həm də işğal edilmiş ərazilərimizdə etnik təmizləmələr nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb”.



Qeyd olunub ki, Ermənistanın millətçilik və işğalçılıq siyasəti təkcə regionun təhlükəsizliyinə təhdid yaratmır, həm də bütün dünyada ekstremizmə və şovinizmə qarşı mübarizəni çətinləşdirir. “Yalnız birlikdə informasiya-maarifçilik fəaliyyətini və təbliğat işini gücləndirməklə faşist ideologiyasının daşıyıcılarını ifşa etmək və müsbət dəyişikliklərə nail olmaq mümkündür. Bu məsələdə biz qəti və dəqiq mövqe tutmalıyıq”, - deyə Ə.Mehdiyev vurğulayıb.

## Amanjol Urazbayev: General-mayor Həzi Aslanovun qəhrəmanlıq yolu hər kəsə örnəkdir



Bizim fəaliyyətimizin əsas istiqaməti gəncləri qəhrəman ata-babalarımızın nümunəsində tərbiyə etməkdir. Mənə çox xoşdur ki, bu konfrans Azərbaycan torpağında keçirilir. Bu, Böyük Qələbənin həmrəylik nəticəsində qazanıldığını bir daha təsdiqləyir.

Bu sözləri AZRTAC-a müsahibəsində Bakıda keçirilən “Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi” adlı beynəlxalq konfransın iştirakçısı, Qazaxıstanın “Arlan” vətənpərvər gənclər mərkəzi ictimai fondunun prezidenti polkovnik Amanjol Urazbayev söyləyib.

Konfransda Azərbaycanın Qələbəyə töhfəsinə dair real rəqəmlər səsləndirildiyini diqqətə çatdıran A.Urazbayev deyib: “Sovet dövründə hər bir vətəndaş bilirdi ki, tank, təyyarə və digər döyüş texnikasının 80 faizindən çoxu Bakı nefti ilə işləyib. Mən Azərbaycan qəhrəmanlarından birinin - Həzi Aslanovun bioqrafiyasını böyük məmnuniyyətlə öyrənmişəm. Əgər təyyarəçilər arasında ikiqat, üçqat qəhrəmanlar var idisə, tankçılar arasında ikiqat qəhrəman olmaq nadir hadisədir. Tank qoşunları general-mayoru Həzi Aslanovun qəhrəmanlıq yolu hər kəsə örnəkdir. Mənə çox xoşdur ki, biz bu gün Həzi Aslanova ehtiram əlaməti olaraq ucaldılmış abidəni gördük. Bu, Azərbaycan gənclərinin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından çox əhəmiyyətlidir”.

## Rusiyanın Əməkdar Təyyarəçisi: Bütün münaqişələr yalnız danışıqlar yolu ilə tənzimlənməlidir

Bakıdakı konfransı düzgün qiymətləndirmək lazımdır. Bu gün dünyada baş verən hadisələr o dərəcədə mürəkkəb və dəyişkəndir ki, mütərəqqi bəşəriyyət sülhə can atır. Bakıda keçirilən konfrans sülh, sağlamlıq, düzlük, dövlətlər arasında qarşılıqlı sülh münasibətləri uğrunda çıxış edir. Bu gün biz buraya ona görə yığışmışıq ki, Yer üzünün bütün insanları sülhsüz yaşamağın mümkün olmadığını anlasınlar. Müharibənin baş verməməsi üçün bütün ölkələr, o cümlədən sülhpərvər Azərbaycan xeyirxahlığa və qarşılıqlı anlaşmaya can atır.

Bu fikri “Qələbənin Varisləri” Beynəlxalq İttifaqının İcraiyyə Komitəsi sədrinin müavini, Rusiya Federasiyası Qəhrəmanı, Rusiyanın Əməkdar Təyyarəçisi Vladimir Alimov “Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi” mövzusunda Bakıda keçirilən beynəlxalq konfrans çərçivəsində AZRTAC-a müsahibəsində söyləyib.

O bildirib ki, konfransın başlıca mövzusu dünya ictimaiyyətini sülhün və sabitliyin qorunub saxlanmasının, münaqişə və müharibələrə yol verilməməsinin vacibliyinə əmin etməkdir. “Bütün münaqişələr yalnız danışıqlar yolu ilə tənzimlənməlidir”, - deyə V.Alimov əlavə edib.

Azərbaycan paytaxtının gözəlliyini qeyd edən Rusiyanın Əməkdar



Təyyarəçisi diqqətə çatdırıb ki, sonuncu dəfə Bakıda 30 il əvvəl olub. “Dünən şəhəri görərkən, sözün yaxşı mənasında, təəccübləndim. Təmiz küçələr, gözəl landşaft, heyranedici memarlıq nümunələri Bakını çox dəyişib. Bütün bunlar Azərbaycan Prezidentinin diqqət və qayğısını bir daha təsdiqləyir. Nəticədə Bakı Avropanın ən gözəl şəhərləri ilə bir sırada dayanır. Rusiyanın bir çox şəhərlərinin bu cür olmasını istərdim”, - deyə V.Alimov bildirib.

# Beynəlxalq konfransın iştirakçıları ilə Milli Məclisdə və Müdafiə Nazirliyində görüş keçirilmişdir



13 oktyabr 2017-ci ildə Bakıda "Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" mövzusunda keçirilən Beynəlxalq konfransın iştirakçıları ilə Azərbaycan Respublikası Milli Məclisində və Müdafiə Nazirliyində görüş keçirilmişdir.

Hər iki görüşdə Beynəlxalq konfransın Azərbaycan Respublikasında keçirilməsinin heç də təsadüfi olmadığından, onun müasir dövrdə mühüm əhəmiyyət kəsb etməsindən danışılmış, faşizm üzərində İkinci dünya müharibəsində qələbədə mühüm amillərdən biri olmuş xalqların



birliyinin bu gün də eyni təmayüllərin, neofaşizmin, separatçılığın, terrorçuluğun, milli, dini zəmində təzahür edən ekstremizmin qarşısının alınmasında əvəzsiz rolundan bəhs edilmişdir.

Milli Məclisdə Beynəlxalq konfransın iştirakçılarını salamlayan Milli Məclis sədrinin 1-ci müavini Ziyafət Əsgərov Azərbaycanın İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbəyə mühüm töhfələr verməsindən, qələbənin 75-ci ildönümünə hazırlıq çərçivəsində "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının Azərbaycan nümayəndəliyinin, Respublika Veteranlar Təşkilatının həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərdən bəhs etmiş, Azərbaycan xalqının və dövlətinin nəinki regionda, bütün dünyada sülhün qorunmasına bu gün də öz töhfəsini verdiyini vurğulamışdır.

Beynəlxalq konfransın iştirakçılarını qəbul edən Azərbaycan Respublikası Müdafiə Nazirinin müavini, general-leytenant Kərim Vəliyev İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin tarixi-mədəni irsinin yaşadılmasının gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş, Bakıda keçirilən tədbirin bu baxımdan diqqətəlayiq olduğunu vurğulamışdır.

Hər iki görüşdə həmçinin, Azərbaycanın bu gün erməni faşizmi ilə qarşılaşması, ərazisinin 20 faizinin 25 ildən artıq müddətdə Ermənistanın işğalı altında olması barədə qonaqlara məlumat verilmiş, Azərbaycan və onun problemlərinin həlli ilə bağlı təəssüf ki, həmişə ikili standartların tətbiq edildiyi bildirilmişdir. Dövlət rəsmiləri ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində Azərbaycan



Respublikası Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl tədbirlərdən danışmış, iki ölkə arasındakı münaqişənin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə, Azərbaycan əsgərinin öz doğma torpaqlarını silah gücünə azad etməyə qadir olduğunu qeyd etmişlər. Bu görüşlərdə eləcə də Respublika Veteranlar Təşkilatının fəaliyyəti, veteranlara dövlət tərəfindən göstərilən qayğı barədə danışılaraq, Azərbaycan Respublikasında bütün zümrədən olan veteranlara münasibətdə ardıcıl dövlət siyasətinin həyata keçirildiyi qeyd edilmişdir. Onlar hər il 9 may ərəfəsində İkinci dünya müharibəsi veteranlarının ölkə rəhbərliyi tərəfindən qəbul olunmaları, onların hər birinə 1000 manat, həlak olmuş döyüşçülərin dul qadınları və arxa cəbhə iştirakçılarına 500 manat birdəfəlik pul müavinəti verilməsini, bu insanların cəmiyyətdə ən hörmətli, nüfuzlu insanlar kimi qəbul edilməsini diqqətə çatdırmışlar.

Beynəlxalq konfransın iştirakçıları adından İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin tarixi-mədəni irsini yaşadan "Qələbənin Varisləri" vətəndaş və təşkilatların Beynəlxalq İttifaqının vitse-prezidenti, Moskva vilayət müharibə və hərbi xidmət veteranları Komitəsinin sədr müavini, general-leytenant Qaponenko Alfred Qriqoryeviç, "Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq İttifaqı"nın sədr müavini Tkaçenko Vladimir İvanoviç, Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov, sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov və başqaları çıxış edərək bu konfransın mühüm əhəmiyyət kəsb etməsindən həmin müharibədə qələbədə xalqıların birliyinin müstəsna əhəmiyyətini bir daha vurğulamış, belə tədbirlərin və görüşlərin qələbə irsinin yaşadılmasındakı rolundanb bəhs danımışlar. Çıxış edənlər həmçinin, İkinci dünya müharibəsinin tarixinin, ümumən tarixin saxtalaşdırılması cəhdlərindən danışmış, bunun yolverilməz olduğunu qeyd etmişlər. Azərbaycan nümayəndələri ermənilər tərəfindən məqsədli şəkildə həyata keçirilən bu fəaliyyətə Azərbaycanın, onun veteranlarının daim öz qəti etirazlarını bildirmələrini xüsusi diqqətə çatdırmış, bütün veteranları bu mövqeni müdafiə etməyə səsləmişlər.

Beynəlxalq konfransın xarici ölkələrdən olan iştirakçıları konfransın işinin yüksək səviyyədə təşkilinə, hər iki qəbula, həmçinin Azərbaycanda gördükləri qonaqpərvərliyə görə, Azərbaycan dövlət və hökumət nümayəndələrinə, Respublika Veteranlar Təşkilatının rəhbərliyinə öz minnətdarlıqlarını bildirmiş, Azərbaycandan ən xoş təəssüratlarla ayrıldıqlarını qeyd etmişlər.

Görüşün sonunda Beynəlxalq konfrans iştirakçılarına Azərbaycan Respublikası Müdafiə naziri tərəfindən ziyafət verilmişdir.

# "Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" mövzusunda beynəlxalq konfransının xarici iştirakçıları Respublika Veteranlar Təşkilatında olmuşlar



Qonaqlar öncə Respublika Veteranlar Təşkilatının inzibati binası ilə tanış olmuşlar. Təşkilatda yaradılmış şərait qonaqlar tərəfindən yüksək qiymətləndirmişdir.

Təşkilatın akt zalında "Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" beynəxalq konfransının xarici iştirakçıları ilə veteranlar və Təşkilatın əməkdaşlarının görüşü keçirilmişdir. Görüşdə Respublika Veteranlar




Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov çıxış edərək demişdir. "Sizi təşkilatımızda görməkdən məmnunluq duyuruq. Bu günlərdə Azərbaycanın ev sahibliyi etdiyi konfransda iştirak etdiyiniz üçün sizə minnətdaram. Onu da qeyd edim ki, konfrans yüksək səviyyədə keçirildi. Biz birlikdə üzərimizə düşən işlərin öhdəsindən layiqincə gəldik. Bu cür beynəlxalq əhəmiyyətli konfransların keçirilməsi dünyada sülhün qorunmasına töhfə verməklə, xalqlar arasında dostluğun inkişafında mühüm stimula çevrilir.

Azərbaycan xalqı sülhsevər və tolerant xalqdır. Biz digər xalqlarla II dünya müharibəsində faşizmlə birgə mübarizə apardıq. Dünyanı faşizm bəlasında qurtamaq üçün hər birimiz səfərbər olquq, sərvətlərimizi qələbə naminə istifadə etdik. Bəli, biz qələbə qazandıq. Alman faşizmi süqüt etdi. Lakin bu gün dünyada gedən proseslər hər birimizi, xüsusən də müharibənin acısını görmüş insanları narahat etməlidir.

Azərbaycan Respublikası II dünya müharibəsində olduğu kimi bu gün də faşizmlə mübarizə aparır. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırm siyasəti faşizmin yeni təzahürü olmaqla, onun müasir dünyada yaşadılması cəhdindən xəbər verir. Bütün dünya dövlətlərini faşizmin istənilən təzahürü ilə mübarizəyə, erməni faşizminə son qoyulması üçün təsirli tədbirlər görməyə, işğal altında olan Azərbaycan torpaqlarının sülh yolu ilə qaytarılmasında bizə dəstək olmağa səsləyirik.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək konfransın əhəmiyyətindən, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin, eləcə də, dövlət orqanları tərəfindən veteranlara göstərilən diqqət və qayğıdan danışmışdır.




Çıxış edən "Qələbənin Varisləri" vətəndaş və təşkilatların Beynəlxalq İttifaqının vitse-prezidenti, Moskva vilayət müharibə və hərbi xidmət veteranları Komitəsinin sədr müavini, general-leytenant Qaponenko Alfred Qriqoryeviç, "Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq



İttifaqı"nın sədr müavini Tkaçenko Vladimir İvanoviç Azərbaycan xalqının qonəqpərvəliyindən, respublikamızın sülhə verdiyi tövhələrdən, ölkəmizin günü-gündən inkişafından və veteranlara göstərilən qayğıdan danışmışlar.

Daha sonra general-leytenant Qaponenko Alfred Qriqoryeviç, Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyası filialının - Cənubi Rusiya İdarəetmə İnstitunun direktor müavini Trubiçın Andrey Vitaliyeviç, "Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq İttifaqı"nın sədr müavini Tkaçenko Vladimir İvanoviç və Beynəlxalq İttifaqın Belarusun Mogilyev vilayəti nümayəndəliyinin rəhbəri Artyomçik Vitali Viktoroviç "Veteran həmrəyliyi" medalı ilə, Moldovanın "Layiqli yaddaş" xeyriyyə fondunun vitse-prezidenti Skripkaraş Anjela İllarionona "Həzi Aslanov" yubiley medalı ilə təltif edildilər. Bütün qonaqlara qiymətli hədiyyələr təqdim edilmişdir.

Həmçinin General-leytenant Qaponenko Alfred Qriqoryeviç Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynovu və Hərbi vətənpərvərlik şöbəsinin müdiri, ehtiyatda olan polkovnik Adil Haqverdiyevi Müstəqil Dövlətlər Birliyi Veteranlarının (Təqaüdçülərinin) Beynəxalq Biriliyinin təsis etdiyi "Naşa Slava" medalı ilə təltif etmişdir.

Sonda xarici qonaqlar Respublika Veteranlar Təşkilatının kollektivi ilə birgə xatirə şəkli çəkdirmişlər.

# Tarixin dili, danışan eksponatlar

Minsk şəhərinə gələn əcnəbilərin ziyarət etdikləri ilk məkanlardan birinin Belarus Dövlət Böyük Vətən müharibəsi Tarixi Muzeyi olduğunu söyləsəm yəqin ki, yanılmaram. Muzey Böyük Vətən müharibəsində qələbə uğrunda canlarından keçmiş insanların xatirəsinə yaradılıb. Böyük bir sahəni əhatə edən muzeyi gəzərkən İkinci Dünya müharibəsi illərinə qayıdırsan.



Bu muzey 1944-cü il oktyabrın 22-də Minskdəki Azadlıq meydanında, müharibə illərində ziyan görməmiş Həmkarlar Evində fəaliyyətə başlayıb. 2014-cü ildə isə hazırda muzeyin yerləşdiyi yeni Memorial Kompleksin açılışı olub. Burada Böyük Vətən müharibəsi illərində istifadə olunan silah-sursat, texnika və digər maraqlı eksponatlar sərgilənir. Bu gün İkinci Dünya müharibəsi ilə bağlı dünyanın ən nəhəng, zəngin muzeyi sayılan bu məkanda Moskva, Kiyev, Minsk və digər şəhərlərdən toplanmış müharibəyə aid eksponatlar yığılıb.



Muzeydə Böyük Vətən müharibəsi illərinin hərb tarixinə aid çox dəyərli eksponatlar saxlanılır. Ümumilikdə 10 ekspozisiya zalı və 4200 kvadratmetr sahəni əhatə edən muzeydə 8 mindən çox ekspozisiya materialı var. Fondu 28 kolleksiya və 144 mindən çox müxtəlif əşyalardan, o cümlədən foto, sənəd, məktub və Böyük Vətən müharibəsi iştirakçılarının şəxsi əşyalarından ibarət muzey daimi olaraq yeni eksponatlarla zənginləşdirilir. “Partizanların əlyazma jurnalları” və “Əldəqayırma partizan silahı” kolleksiyaları birinci dərəcəli tarixi-mədəni dəyərə malikdir. Ümumilikdə, müharibəyə aid 27 min sənəd saxlanılır.

Bölmələrin birində müharibənin başlanması, Belarus ərazisində ilk müdafiə, o cümlədən Smolensk və Moskva döyüşləri barədə məlumat verilir. Brest qalası müdafiəçilərinin qəhrəmanlığı ziyarətçilərə xüsusi qurğu vasitəsilə təqdim olunur.



Muzeydə faşizm üzərində ümumi qələbənin qazanılmasında və Belarusun faşist işğalçılarından azad olunmasında Azərbaycan xalqının qəhrəman oğullarının böyük şücaətini əks etdirən eksponatlar da var. Brest qalasının müdafiəsi zamanı da azərbaycanlılar qəhrəmanlıqları ilə seçiliblər.

Muzeydə nasist Almaniyasının Belarus ərazisində yaratdığı ölüm düşərgələri, həmçinin digər həbsxanalarla bağlı maraqlı eksponatlar sərgilənir. Məlumata görə, Belarusda hitlerçilər 250-dən çox ölüm düşərgəsi və insanların kütləvi məhvetmə məntəqəsi yaradıblar. Bu faşist düşərgələrində sovet xalqlarının digər nümayəndələri ilə yanaşı, 30 azərbaycanlı hərbiçi də qətlə yetirilib.

“Belarusda partizan hərəkatı və antifaşist gizli mübarizəsi” adlanan zal maraqlı dizaynı ilə seçilir. Almanların Belarusu işğal etdikləri dövrdə burada partizan hərəkatının Mərkəzi və Belarus qərargahları yaradılıb. Muzeydə Belarusdakı partizan hərəkatında iştirak edən azərbaycanlıların göstərdikləri şücaətlər barədə də ətraflı məlumat verilir. Həmyerlilərimiz Ələkbər Əliyev və Məmməd Məmmədov partizan hərəkatında xüsusi qəhrəmanlıqlar göstəriblər. Muzeydə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin şücaəti haqqında da məlumat verilir. Hazırda Minskdə onun adını daşıyan küçə var.



“Qələbə” zalında Azərbaycanın səkkiz qəhrəman oğlunun - Sovet İttifaqı Qəhrəmanlarının adları qızıl hərflərlə həkk olunub. Onlar Belarusun işğaldan azad olunmasında mərdlik və qəhrəmanlıq göstəriblər. Onların arasında iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun da adı var. O, Smorqon şəhərinin fəxri vətəndaşı adına layiq görülüb, Vileyka şəhərində onun şərəfinə abidə ucaldılıb. Hər iki şəhərdə Həzi Aslanovun adını daşıyan küçələr var.



Muzeydə Həzi Aslanovla bağlı kitablar da sərgilənir.

***Emil Hüseynli***
***AZRTAC-ın xüsusi müxbiri***

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının sədr müavini
e.o polkovnik Cəlil Xəlilov Masallı rayon İcra Hakiminin
müavini Nəsir Muxtarlının bacısı
Muxtarova İradə Muxtar qızının
vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə və
yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:*** *1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*